Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü

**18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Agazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü:** Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. K. Səmədzadə; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 34 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

YUNESKO-nun qərarı ilə 1983-ildən etibarən hər il aprelin 18 dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu günün keçirilməsində məqsəd insanların diqqətini tarixi abidə və yerlərin qorunmasına yönəltməkdən ibarətdir. Tarixi abidələr keçmişdən gələcəyə körpü rolunu oynayır. Ulu babalarımızın bizə yadigar qoyduğu tarixi abidələrimiz Azərbaycan xalqının qədim mədəniyyətinin göstəricisidir. Çünki hər bir tarixi abidə məxsus olduğu dövrün mədəni mühitini, təfəkkür və düşüncə tərzini özündə yaşadır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan qoruğunda 1067 sayda dünya əhəmiyyətli, "İçərişəhər" tarix-memarlıq qoruğunda 3 dünya, 93 ölkə, 2568 yerli əhəmiyyətli, "Qala" tarix-etnoqrafiya qoruğunda 7 ölkə, 234 yerli, "Nardaran" tarix-mədəniyyət qoruğunda 1 dünya, 5 ölkə, 7 yerli, "Atəşgah" tarix-memarlıq qoruğunda 1 dünya əhəmiyyətli tarixi abidə qeydə alınmışdır. Son illər ərazidə 1700-dək yeni abidə aşkar olunub. Tariximizin təcəssümü olan bu abidələr turizm baxımından da böyük əhəmiyyət daşıyır.

Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkə daxilində və xaricində həyata keçirdikləri böyük işlər hər kəs üçün ən gözəl örnəkdir.

"İçərişəhər" dövlət tarix-memarlıq kompleksi, "Qobustan" dövlət tarixi-bədii qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub. Hazırda digər tarixi yerlər və

abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində böyük işlər aparılır.

Milli mədəni irsin qorunmasını təmin etmək, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" isə bundan sonra görüləcək işlərin istiqamətini dəqiq müəyyən edən qiymətli bir sənəddir. Bu sənədə daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısının tərtibi, bərpa-konservasiya işlərinə dair normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, qoruqların maddi-texniki bazasının gücləndirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafı kimi vacib məsələlər daxil edilib.

Azərbaycanda 6308 tarixi abidə var. Bunların 65-i dünya əhəmiyyətli, 2034-nün ölkə, 4209-u yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir. Bildirilmişdir ki, hazırda işğal altında olan ərazilərdə yerləşən dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz olan Azıx (Füzuli) və Tağlar (Xocavənd) mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir.

Hər il olduğu kimi, bu il də 18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü F. Köçərli adına Respublika Uşaq Kitabxanasında geniş şəkildə qeyd olunur. Bu münasibətlə hazırladığımız vəsaiti sizlər üçün təqdim edirik. Vəsait II bölmədən ibarətdir. Vəsaitdən müəllimlər, kitabxanaçılar, oxucular səmərəli şəkildə istifadə edə bilərlər.

## Bölmə I

## 18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü

*Biz Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin mühafizəsinə daha çox diqqət və qayğı göstərməli, bərpa işlərini təkmilləşdirməliyik.*

**Heydər Əliyev,**
*ümumilli lider*

*Dünya tərəqqi etdikcə ətraf mühitə, xüsusilə də memarlıq abidələrinə yeni baxış, münasibət yaranır. Hər bir memarlıq abidəsi öz varlığında təkcə doğulduğu tarixi deyil, həm də məxsus olduğu dövrün mədəni mühitini, maddi imkanını, yaradıcısının təfəkkür tərzini, düşüncəsini əks etdirir. Memarlıq abidələrinin mühafizəsi həm də maddi və mənəvi həyatımızın güzgüsünü hifz etməklə onu gələcək nəslə çatdırmaq deməkdir.*

Bu gün dünyanın diqqəti abidələrin mühafizəsinə yönəlib. Təbii ki, Azərbaycan dövləti də milli mədəniyyətimizin müxtəlif məqamlarını özündə əks etdirən abidələrin qorunmasında, bərpasında və gələcək nəsillərə çatdırılmasında maraqlıdır. Ümumilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bu sahədə müxtəlif tədbirlər həyata keçirilib. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlət başçısı İlham Əliyev Azərbaycan abidələrinin taleyi ilə bağlı dəfələrlə müxtəlif sərəncamlar imzalayıb, bir sıra tədbirlərin həyata keçirilməsinin təşəbbüskarı olub.

Azərbaycanda memarlıq sənətinin ilk elementləri, bildiyimiz kimi, Qobustan qaya təsvirlərində və Gəmiqayada öz əksini tapmışdır. Bu, həm də onu sübuta yetirmişdir ki, Azərbaycan qədim mədəniyyət beşiklərindən biridir. XII əsrdə yaşamış Memar Əcəminin bu günümüzə qədər gəlib çıxmış abidələri,

müxtəlif bölgələrimizdə ucaldılmış saraylar maddi-mədəniyyət sərvətlərimizin ən gözəl nümunələridir.

Var-dövləti, əmlakı talan edilib uzaqlara aparılan, bizə ancaq boş divarları qalmış Şəki Xan sarayı, Şirvanşahlar sarayı və başqa tarixi binaların özləri elə bir abidədir. Onlar yalnız Azərbaycanın deyil, dünya mədəniyyətinin inciləri sayılırlar. Hal-hazırda “İçərişəhər” YUNESKO-nun Dünya İrs Siyahısına salınmış bir abidədir. Məlumdur ki, ümumilli liderimiz Heydər Əliyev İçərişəhərin mühafizəsi ilə bağlı vaxtilə bir neçə dəfə sərəncam imzalamışdır.

Hər bir abidə tarixin əks-sədasıdır. Amma onlar illəri, əsrləri, müəyyən təbii prosesləri, quruluş dəyişmələrini adladıqca müəyyən deformasiyaya məruz qalır, sökülür, dağılır, sıradan çıxır. Bu səbəbdən də hər bir abidənin insan əlinin sığalına ehtiyacı var. Prezident İlham Əliyev 2 aprel 2017-ci ildə “Azərbaycan Respublikasında monumental və memarlıq kompleksləri haqqında” sərəncam imzalamışdır. Həmin sərəncamda deyilir: “Ölkəmizin müxtəlif guşələrində ucaldılan monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri bu gün artıq şəhər və kəndlərimizin görkəminin ayrılmaz hissəsinə çevrilmişdir. Yüksək estetik dəyərə malik olan, milli-mənəvi irsə və tarixi keçmişə dərin ehtiram duyğusu oyadan bu əsərlər Azərbaycan heykəltəraşlıq və memarlıq sənətinin gözəl nümunələridir”.

Məlumdur ki, monumental heykəltəraşlıq xəzinəmizin qızıl fonduna daxil olmuş bütün abidələrin mühafizəsi və bərpası ilə bağlı ölkə başçısı aidiyyəti təşkilatların qarşısında konkret vəzifələr qoymuşdur. Həmin sərəncamda önəmli cəhətlərdən biri də budur ki, cənab İlham Əliyev  XX əsrdə ucaldılmış, lakin görünüşü bugünkü dövrdə bizi qane etməyən, yəni dünya satandartlarına uyğun olmayan bəzi xatirə komplekslərinin də Azərbaycançılıq fəlsəfəsinin meyarlarına uyğunlaşdırılmasının

zəruri olduğunu qeyd etmişdir. Həmin sərəncamda yeni tarixi-etnoqrafik abidələrin də yaradılması nəzərdə tutulmuşdur.

Ermənilərin 1988-ci ildən başlayan torpaq iddiaları Zəngəzur, Dərələyəz, İrəvan, Göyçə, Vedibasar...bölgələrindəki tarixi abidələrin zəbtinə, sıradan çıxmasına, adlarının dəyişdirilməsinə səbəb oldu. 20 faiz Azərbaycan torpaqlarının işğalı nəticəsində oradakı abidələrin, maddi mədəniyyət abidələrinin dəyəri və mövcud vəziyyəti haqqında tamamilə dəqiq məlumat yoxdur. Bu gün dünya abidələrin beynəlxalq mühafizəsi barəsində düşünür. Çox təzadlı məqamdır. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus yüzlərlə mədəniyyət abidələri var idi ki, ermənilər onların bir hissəsini dağıdıb. Bəzilərinin də adlarını dəyişdirərək tarixini saxtalaşdırıblar. Bu, adi hərəkət deyil, qəsdən törədilmiş cinayətdir.

İşğal olunmuş ərazilərdə qalan abidələr dünya, respublika və yerli əhəmiyyətlidir. Araşdırmalar göstərir ki, ermənilərin caynaqlarına keçirdiyi rayonlarımızda 7 dünya əhəmiyyətli, 206 respublika əhəmiyyətli, 333 yerli əhəmiyyətli tarixi və mədəniyyət abidəsi vardır. Bir qədər bu abidələr haqqında məlumat verək.

Füzuli şəhərinin 14 kilometr qərbində yerləşmiş Azıx mağarası bizim eradan əvvəl yaradılmışdır. Bu qeyri-adi mağara dünyanın ən qədim yaşayış məskəni sayılırdı. Aparılan araşdırmalar nəticəsində  də məlumdur ki, Azıx mağarasının sakinləri əcdadlarımız olub. Təəssüf ki, dünya əhəmiyyətli bu tarixi yerdən indi ermənilər silah anbarı kimi istifadə edirlər. Şuşa özü tarix-memarlıq qoruğu kimi hifz edilirdi və dünya əhəmiyyətli şəhər-abidə sayılırdı. İndi orada ermənilər bütün tarixi abidələri yerlə-yeksan edərək yeni Şuşa qurmağa cəhd göstərirlər. Eləcə də Ağdam rayonundakı Xaçın türbəsi (1314), Cəbrayıldakı iki Tağlı Xudafərin körpüsü (XIII əsr), Kəlbəcər

rayonundakı Gəncəsər monastrı (1238-ci il), dünya əhəmiyyətli tarix və mədəniyyət abidələridir. Biz indi bu abidələrin tarixindən xəbərsizik.

Bütövlükdə Ağdamda 44, Qubadlıda 31, Zəngilanda 12, Kəlbəcərdə 39, Laçında 54, Füzulidə 52, Xocalıda 16, Şuşada 228 (1 dünya, 110 respublika, 117 yerli əhəmiyyətli), Xankəndində 1 tarix və mədəniyyət abidəsi işğal edilmişdir. Zəbt olunmuş rayonların ərazilərində 10 mədəniyyət və istirahət parkı, 48 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi, 3 teatr və 3 rəsm qalereyası qalıb.

Azərbaycan dövləti milli nədəniyyətimizin müxtəlif məqamlarını özündə əks etdirən abidələrin qorunmasında, bərpasında və gələcək nəsillərə çatdırılmasında həmişə maraqlıdır.

Keçmişi bu gün üçün aydınlaşdırmadan, tarixi yaddaşı oyatmadan, uluların daşlaşmış-abidələşmiş pıçıltılarını eşitmədən hər hansı bir xalqın ictimai və milli şüurunun formalaşması qeyri-mümkündür. Tarixi tikililər əcdadlarımızın vətən torpağında daş hərflərlə yazdığı salnamələridir.

Şərqin ən qocaman yaşayış yerlərindən biri olan Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada keçmişimizi özündə yaşadan bir abidə olmasın. Yəqin elə buna görədir ki, Azərbaycanı açıq səma altında nəhəng muzey adlandırırlar.

İstər qədim, istər orta əsr, istərsə də sonuncu yüz illikdə Azərbaycan sənətkarlarının əl işləri şərqin ən möhtəşəm, ən qədim şəhərlərini bəzəyirdi.

Arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış və ya hələ dağılmayıb duruş gətirən qədim memarlıq abidələri, daş kitabələr ulularımızın qərinələr arxasından gələn səsi, sədasıdır.

Repressiya illəri də minlərlə işıqlı şəxsiyyətlərimiz kimi tarixi abidələrimizə də özünün dəmir “sığalı”nı çəkdi. Məscidlər, pirlər, türbələr və s. belə tarixi abidələr dinlə

əlaqələndirilib insafsızcasına dağıdıldı. Məhv olmuş hər bir tarixi tikili keçmişimizi bizim üçün anlaşılmaz etmiş, dünənimizə uzanan cığırlara sədd çəkmişdir. Bu sədlərin hələ bizə məlum olan ünvanları ilə addımladıqca milli mədəniyyətimizə edilən sui-qəsdin açıq-aşkarlığı olduqca heyrətamizdir.

## Bölmə II
## Tədbirlərin keçirilməsi

*Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk.*

**Heydər Əliyev,**
*ümumilli lider*

Mədəniyyət abidələrimizin öyrənilməsi, qorunması və bərpası istiaqamətində ölkəmizdə dünya səviyyəsində ciddi iş aparılır. Heç təsadüfi deyil ki, dünyəvi əhəmiyyət daşıyan abidələrimiz beynəlxalq ictimaiyyətin də diqqət mərkəzindədir. Belə abidələrimizdən bir neçəsi "YUNESKO-nun "Dünya irs siyahısı"na daxil edilmişdir.

Tarix və mədəniyyətimizin inciləri olan abidələri qorumaq hər kəsin borcu və vətəndaşlıq vəzifəsidir. Hər bir vətəndaşın ümdə vəzifəsi bu abidələri xalqa tanıtmaq, onlar haqqında düzgün və elmi məlumat verməkdir.

18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü. Bu münasibətlə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında geniş və maraqlı tədbirlər planı hazırlanmışdır. Abidələrə təşkil edilən ekskursiyalar, vaxtaşırı keçirilən kitab icmalları, oxucu konfransları, mühazirə, söhbətlər və ən əsası sərgilər də

abidələrimizin təbliğində çox təsirli tədbirlərdir. Belə tədbirlərin ən öndəsi sərgidir. Sərgilər müxtəlif cür keçirilə bilər. Məsələn, Beynəlxalq abidələrin foto sərgisi, Azərbaycan ərazilərində yerləşən milli abidələrimizin foto sərgisi, kitab sərgisi və s. İlk əvvəl kitabxanada milli mədəniyyətimizin müxtəlif məqamlarını özündə əks etdirən abidələrin foto sərgisi nümayiş olunur. Daha sonra kitabxananın fondunda yer alan kitabların, dövri mətbuatda nəşr olunan jurnal, qəzet, bukletlərin nümayişi nəzərdə tutulur.

*Sərgi qarşısında kitabxanaçı söhbətə başlayır.*

**Kitabxanaçı:** Hər bir xalqın özünəməxsus tarixi, mədəni irsi olduğu kimi, Azərbaycanın da çox qədim tarixi, şanlı keçmişi və mədəni irsi vardır.

Bu irsin böyük bir qismini tarix və mədəniyyət abidələri təşkil edir ki, onlar da bəzən ya təbii təxribatlara uğrayır, ya da baxımsızlıq, nadanlıq üzündən qəsdən dağıdılıb sıradan çıxır.

Halbuki, bunların hamısı bizdən öncəki nəslin bu torpaqda qoyub getdiyi tarixi izlərdir. Biz bu abidələrə laqeyd münasibət bəsləməklə əsil-nəcəbimizi, simamızı, varlığımızı, zəngin mədəniyyətimizi hissə-hissə itirmiş oluruq.

Gəlin sizlərlə birlikdə kitabxanamızın fondunda yer alan kitabların sərgisi və foto sərgi ilə tanış olaq.

# Foto sərgi
















## Kitab sərgisi

























QƏRBİ
AZƏRBAYCAN
ABİDƏLƏRİ
AZIZ ALAKBARLI
MONUMENTS
OF THE WESTERN
AZERBAIJAN


Rizvan Bayramov
XI-XVIII ƏSRLƏR
AZƏRBAYCAN MEMARLIQ ABİDƏLƏRİNİN
TİPOLOJİ TƏSNİFATI


Шуша
ПАМЯТНИКИ КАРАБАХА
QARABAĞ ABİDƏLƏRİ
KARABAKH MONUMENTS


ERMƏNİ
MƏNƏVİ
TERRORU
Adlar dəyişsə də, tarix qalır
CƏFƏR QİYASİ, İBRAHİM BOZYEL


Cəfərqulu Rüstəmov
Füruzə Muradova
QOBUSTAN
KİÇİKDAŞ ABİDƏLƏRİ


Azərbaycan islam
mədəniyyəti abidələri
abidələr
alimlər
mütəfəkkirlər
məktəblər

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Kitabxanaçı **“Qarabağ abidələri”** adlı kitabın icmalını keçirmək üçün tədbirə bir çox qonaqları dəvət edir. Tədbir “**Qarabağ abidələri”** adlı videoçarxla başlayır. Daha sonra kitabxanaçı kitab haqqında geniş məlumat verir.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Qarabağ abidələri dünən, bu gün” layihəsi çərçivəsində çap olunmuşdur. Kitabda yer alan məlumatlar üç dildə (azərbaycan, ingilis, rus) verilmişdir.

Tədbirimizə Ulu öndər Heydər Əliyevin kəlamı ilə başlayırıq.

*...Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır...gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin... Xalqın övladları bu torpaqda doğulub, dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik... Torpaqlarımızı erməni terrorundan azad etməliyik.*

**Heydər Əliyev,**
*ümumilli lider*

**Kitabxanaçı:** Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri 2 min il yaşı olan Azıx düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının tunc və dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir.

Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr – Xocalıdakı dolmenlər, Xankəndindəki

kromlexlər, eləcə də Qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını – mənəvi düşüncə tərzini əks etdirən maddi mədəniyyət nişanələridir.

Qarabağ ərazisində 2000-dən artıq müxtəlif növ mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyətini epiqrafik abidələr təşkil edir. Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisindən vaxtilə xeyli miqdarda tikili, qəbir və s. epiqrafik abidələri qeydə alınmış və tədqiq edilmişdir.

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq, (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam və s. inşa edilmişdir. Ağdamda imarətlər, Pənah xana və nəslinə aid günbəzlər tikilmişdir.

Qarabağ xanlığı dövründə bir çox qalalar (Bayat, Şahbulaq, Pənahabad (Şuşa) tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmışdır. Qarabağ xanlığının mərkəzi Şuşada yaşayış evlərinin, ictimai tikililərin interyerində divar naxışlarının gözəl və tipik nümunələri yaradılmışdır.

Bu abidələrin çoxu Azərbaycanda memorial tikililərin əsas növünü təşkil edir. Hal-hazırda işğal altında olduğuna görə həmin abidələrin taleyi məlum deyil.

Torpağımızın çox qədim tarixini, keçmişimizi və bu günümüzü işıqlandıran tarix və mədəniyyət abidələrimiz mənəvi aləmin misilsiz yadigarı, onun bədii, estetik düşüncələrinin təcəssümü, maddi və mənəvi inciləridir.

Tarixi və mədəni irsimizin ən qədim nümunələri, əlbəttə, arxeoloji abidələrdir. Azərbaycan – orta əsrlər dövrünün abidələri, şəhər və şəhərgahları, qalaları, körpüləri, məbədləri, karvansaraları və s. ilə də çox zəngindir.

Kitab “Xalq sənətkarlığı”, “Daş fiqurlar” adlı bölmələri ilə diqqəti daha çox çəkir. Kitabda həmçinin işğal altında olan rayonlarımız haqqında və orada yerləşən abidələrin siyahısı geniş şəkildə verilmişdir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında 18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar təşkil olunan tədbirlərdən biri də kitabxananın nağıl otağında keçirilən *“Nağıl saatı”*dır. Bu tədbir oxucuların ən çox sevdiyi və maraqla qarşıladığı tədbirlərdən biridir. Kitabxanaçı yazıçı Dilsuzun “Qız qalası” adlı nağılını oxucular üçün oxuyur.

**Kitabxanaçı:** Biri vardı, biri yoxdu, qədim Oğuz elində Elxan adında bir igid var idi.. Günlərin bir günü, o, say-seçmə oğuz ərlərini yanına çağırıb dedi:

– Bəylər, yata-yata yanımız ağrıdı! Qılıncımız qınında paslandı! Oxumuzun yayı boşaldı! Bədöy atlarımızı minib, Xızı dağlarına çıxaq, əlik, turac, qırqovul, kəklik ovlayaq, yeyək-içək, eynimiz açılsın!

Oğuz ərləri, elə bil, himə bənd idilər, bir göz qırpımında atlarını yəhərlədilər, qılınclarını, ox-yaylarını götürüb yola düzəldilər.

Əliklərin, turacların, qırqovulların, kəkliklərin həm ətə-qana dolan, həm də bol vaxtı idi. Odur ki, günortaya qədər xeyli ov ovladılar. Axırda gəlib bir bulağın üstündə məclis qurdular. Yedilər, içdilər, eynləri açıldı. Axşamüstü obalarına dönürdülər ki, talada bir marala rast gəldilər.

Elxan dedi:

– Bəylər ox atmayın, mən bu maralı kəməndlə diri tutmaq istəyirəm!

Oğuz ərləri ona keçi qəzilindən hörülmüş bir kəmənd verdilər. Elxan atını dəhmərləyib, maralın arxasınca düşdü. Qovhaqov, qovhaqov, axırda gəlib meşənin qurtaracağında allı-güllü bir çəmənliyə çıxdı. Gördü maral gözəl-göyçək bir

qızın yanında dayanıb, özü də elə tövşüyür, elə tövşüyür, deyirsən, bəs, indicə nəfəsi kəsiləcək.
Qız Elxanı görən kimi acıqlandı:
– İgid, sən kimsən, cürət edib, mənim maralımı qovursan?
Elxan gördü bu bir qızdı ki, vallah, aya deyir sən çıxma, mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Bir könüldən min könülə aşiq oldu. Atından enib dedi:
– Adım Elxandı. Oğuz ellərindənəm. Ox atsam, oxuma ox çatmaz! Qılınc çalsam, qılıncıma qılınc çatmaz! Bilmədim, maralını qovaladım. Əvəzində, qaba-qaba dağlarım var-sənə qurban olsun! Suları gömgöy ırmaqlarım var-sənə qurban olsun! Kölgəli ormanlarım var-sənə qurban olsun! Adını de mənə!
Elxanın sözləri qızın xoşuna gəldi. Dedi:
– Adım Banudu.

Elxanla Banu elə oradaca əhd-peyman bağladılar. Sonra Elxan öz atına, Banu da öz atına minib yola düzəldilər. Maral da düşdü bunların arxasınca...

İndi sizə kimdən deyim, Qart Məlikdən. Oğuz ərlərinin igidliyini, şan-şöhrətini gözü götürmürdü. Girəvə axtarırdı ki, aralığa çaxnaşma salsın. Elə ki, eşitdi Elxanla gözəllər gözəli Banu nişanlanıblar, bu gün-sabah da toylarıdı, paxıllığından az qaldı bağrı çatlasın. Qoşunu ilə gəlib durdu Oğuz ellərinin düz sərhəddində. Bundan xəbər tutan Elxan dərya kənarında hündür bir qala tikdirdi və Banuya dedi:
– Səfərə çıxıram. Mən gələnə kimi burada qalarsan.

Elxan adlı-sanlı oğuz ərlərini də götürüb, Qart Məliyin üstünə getdi. Qanlı döyüş oldu. Oxlar vıyıldadı, qılınclar şaqqıldadı. Qart Məlik gördü yenilir, Tösək qarını tez yanına çağırıb:
– Bu zalım oğlu zalım axırımıza çıxacaq,-dedi. Bir çarə tap.
Tösək qarı üz-gözünü turşutdu:
– Bu qədər qoşunla sən öhdəsindən gələ bilməyəndən sonra mən nə edə bilərəm?

Qart Məlik yağlı dilini işə saldı:
– Divin canı şüşədə olan kimi, Elxanın da canı Banudadı. İndi, bax, gör nə edirsən? Bu bir kisə qızıl da səndindi.
Tösək qarı qızılları görən kimi yumşaldı və dedi:
– Elxan dərya kənarında bir qala tikdirib. Banunu da orada saxlayır. Görüm içəri keçə bilərəmmi?
Elxan qalanın girəcəyinə keşikçi qoymuşdu ki, boy-buxununa, qılıncına-qalxanına baxanda adamın zəhmi yarılırdı. Tösək qarı keşikçiyə yaxınlaşmağa əvvəl ürək eləmədi, sonra özünü birtəhər ələ alıb, dedi:
– Bala, Banuya de ki, igidlər igidi Elxandan ona xəbər gətirmişəm.
Keşikçi qapını arxadan qıfıllayıb yuxarı qalxdı. Bir azdan qayıdıb, Tösək qarıya dedi: – Buyur:
Tösək qarı içəri keçdi. Hıqqına-hıqqına pilləkənləri yuxarı qalxdı. Banunu görən kimi dedi:
– Kaş, ayaqlarım qırılaydı, kaş, gözlərim kor olaydı, kaş, dilim quruyaydı...
Banu bərk narahat oldu, dedi:
– Tösək qarı, bu nə sözdü danışırsan? Tez Elxandan mənə bir xəbər! Tösək qarı bir dizinə, bir sinəsinə döyə-döyə:
– Qart Məliyin əli qurusun, atdığı ox Elxanın ürəyinə sancıldı,- dedi.
Banu əl atıb saçını yoldu, al yanağını yırtdı, özünü ora-bura çırpdı, ahıldadı, ufuldadı, göz yaşını sel kimi axıtdı, amma sakitləşmədi. Gəlinlik paltarını geyinib, qalanın başına qalxdı və oradan özünü dəryaya atdı. Bunu görən Tösək qarı tumanının ətəklərini yığıb, pilləkənlərdən üzüaşağı endi, kirimişcə qapıdan çıxdı.
Elxan, Qart Məliyi məğlub etmişdi. Şölən qurmuşdu. Oğuz ərləri ilə şadlıq-şadyanalıq eləyirdi. Bir də gördü ki, Tösək qarı əllərini dizlərinə çırpa-çırpa gəlir, - dedi:

– Tösək qarı, imanı yanıq qarı, başmağı cırıq qarı, yenə nə olub?
Tösək qarı əllərini dizlərinə çırpa-çırpa dedi:
– Ta nə olacaq? Kaş, ayaqlarım qırılaydı! Kaş, gözlərim kor olaydı! Kaş, dilim quruyaydı! Banu qalanın başından özünü dəryaya atdı!

Elxan bu bəd xəbəri eşidən kimi cəld atın belinə qalxdı, üz tutdu qalaya sarı. Gəldi gördü el-oba yas içindədi.

Atından enib, qalaya girdi, düz qırx gün, qırx gücə eşiyə çıxmadı.

Axırda Dədəm Qorqud gəldi, Elxanı qaladan çıxartdı, qolça qopuzunu çaldı, boy boyladı, soy söylədi, - dedi:
– Bu qala bu gündən "Qız qalası" olsun, "İsmət qalası" olsun, "Namus qalası" olsun! Adını mən verdim, ömrünü də tanrı versin!

Bu söz Tanrıya xoş getdi. Tanrı "Qız qalası" na dünya qədər ömür verdi...

Nağıl bitdikdən sonra kitabxanaçı oxucularla birlikdə "Qız qalası" na ekskursiya edir.

Azərbaycanın zəngin və məhsuldar torpağı hələ qədimlərdən ibtidai insanları özünə cəlb etmişdir. Fəxrlə qeyd etmək lazımdır ki, Azərbaycan torpağı qədim ibtidai insanın ilkin "beşiklərindən" biri olmuşdur. Son vaxtlara qədər Azərbaycanda qədim insan izlərinin tarixini 150-200 min il hesab edirdiksə, görkəmli alimlərin səyi, apardığı tədqiqatların nəticəsində elm aləminə bir daha sübut olundu ki, Azərbaycan torpağı 1 milyon 500 min il bundan əvvəl qədim insanların məskəni olmuşdur.

Respublikamızın müxtəlif guşələrində aşkar olunmuş qədim qayaüstü rəsmlər bir daha sübut edir ki, hələ neçə min illər bundan əvvəl bu ərazidə qədim ibtidai insanlar yaşamış və öz maddi mədəniyyətini yaradaraq gələcək nəsillərə nümunə qoymuşlar.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında *18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü* ilə bağlı təşkil olunan ekskursiyanın məqsədi orta yaş məktəb şagirdlərini tarixi yerlər və tarixi abidələrimizlə tanış etməkdir.

Qobustan dövlət tarixi-bədii qoruğunun bələdçisi **"Qobustan tarixin daş səhifələri"** adlı söhbətə başlayır.

**Bələdçi:** Qobustan Milli Tarixi-Bədii Qoruğu zəngin qayaüstü təsvirlərə malik olmaqla dünyanın çox az bu tipli abidələri sırasında xüsusi yer tutur. Qeyd edək ki, Qobustan qoruğu beş dağdan-Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şanqardağ, Şıxqayadan ibarətdir. Dağlarda mövcud olan daş dövrünə və sonrakı vaxtlara aid 20 mağara-yaşayış yeri, 40 kurqan, 6000-dən artıq qayaüstü təsvirlər keçmişimizin şahidləridir.

Ərazidə tapılan insanın ilk əmək alətləri-çaxmaq daşı, vulkan şüşəsi, müxtəlif daş alətlər qoruğun qədim insan məskəni olduğunu sübut etməklə həm də onun arxeoloji landşaftıdır. Elmi məlumatlara görə, Qobustan qayalarında 4000-dən çox petroqlif, yəni daş üzərində rəsm var. Bu rəsmlərdə heyvan və balıq ovu, məişət səhnələri, kollektiv rəqslər, müxtəlif, o cümlədən Günəşi əks etdirən rəmzlər, bürclər, digər fəza cisimləri diqqəti cəlb edir. Qayaüstü rəsmlərdəki kişi və qadın təsvirləri də elmi cəhətdən maraq doğurur. Qobustandakı bəzi qaya parçaları öz keyfiyyətinə görə adi daşlardan çox fərqlənir. Məsələn, burada elə daşlar var ki, üzərinə zərblə vurduqda, əsl qaval səsi çıxarır. "Qavaldaş" adlı qaya parçasına bu adı elə ona görə veriblər.

Abidənin tarixinə gəlincə, bu alimlərin qarşısında dayanan ən mürəkkəb məsələlərdən biri olub. Amma son illər sübut olunub ki, bu tarixi məkanın qayaüstü rəsmləri, ən qədim abidələri üst paleolit dövrünün sonuna, yəni 35 min il əvvələ aiddir. Bəşəriyyətin ilkin dövrlərini öyrənmək baxımından qlobal mahiyyət kəsb edən Qobustan qayaüstü rəsmləri yalnız XX əsrin

əvvəllərində aşkarlanıb. Bu unikal abidə barəsində dünyaya ilk dəfə məlumat verən şəxs tarixçi alim, arxeoloq, Azərbaycanın qədim dövrlərinin tədqiqatçısı İshaq Cəfərzadə olub. İkinci Dünya müharibəsi ərəfəsində 1930-cu ildə Qobustanda tədqiqat aparan alim, o vaxta kimi elm aləminə məlum olmayan qayaüstü rəsmləri-petroqlifləri aşkar edib. Qobustanın tədqiq olunması da elə həmin vaxtdan başlanır. İshaq Cəfərzadə ilə yanaşı digər tarixçi alimlər-arxeoloq Cəfərqulu Rüstəmov və onun həyat yoldaşı Firuzə Muradova da həyatlarının 35 ilini Qobustanın öyrənilməsinə həsr ediblər.

Qobustanın unikal, özünəməxsus landşaftını nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Sovetinin 503 saylı qərarına görə, 1966-cı ildə Qobustanın Böyükdaş, Kiçikdaş, Cingirdağ və Yazılıtəpə əraziləri Qobustan Dövlət Tarixi Bədii Qoruğu elan edilib. Qoruq 2007-ci ildə YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü və müraciəti əsasında YUNESKO-nun Mədəni İrs Siyahısına salınıb. Bu, mədəni irsimizin dünyaya tanıdılmasında mühüm addım olub. Təsadüfi deyil ki, elə həmin il iyunun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qobustan Milli Tarixi-Bədii Qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" sərəncam imzalayıb.

Qobustan açıq səma altında təbii muzeydi. Nəhəng qayaların halayında qədimlərdən dövrümüzə axıb gələn bir əhvalın ritmi duyulmaqdadı. Ulu babaların daşlara köçmüş bu qəribə "həyatı"nın qızmar günəşə, laciverd səmaya, sinəsi cadar-cadar torpağa da bir az oxşayışı var. İlk insan burada sərbəst sənət duyğularını daşlara köçürərkən həyatının qəribə səhifələrindən söhbət açıb. Qobustanda hər daş, hər qaya özlüyündə bədii sənət əsəridi.

Qədim qayaüstü təsvirlər tarixi-arxeoloji abidələrin ən maraqlı və sirlilərindəndir. O, bəşər tarixini öyrənmək üçün obrazlı "dilə" malik qiymətli maddi-mədəniyyət qalıqları, keçmişin səhifələrini işqlandıran, ibtidai cəmiyyətdə insan əməyi və fəaliyyətini, onun həyatını və dünyagörüşünü rəngarəng və əyani şəkildə əks etdirən tarixi sənəd "canlı" arxivdir.

Qayaüstü təsvirlər qədim insanların həyat tərzi haqda biliklərimizin qiymətli mənbələrindən ibtidai yaradıcılıq yollarının inkişafını təsəvvür etməyə imkan verən qədim incəsənət əsərləridir, qədim nəsillərin özləri haqda canlı hekayələridir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan tədbirlərdən biri də oxucular arasında keçirilən *viktorinalardır.* Viktorinanın orta məktəbin yuxarı sinif şagirdləri arasında keçirilməsi nəzərdə tutulmuşdur.

*Kitabxanaçı viktorinanı açıq elan edir.*

**Kitabxanaçı:** Dünyada hər bir ölkə öz əzəmətli abidələri ilə tanınır. Məsələn, Fransa Eyfel qülləsi ilə, Rusiya Kremllə, Azərbaycan Qız qalası, Hindistan Tac-Mahal ilə və s. Belə



abidələr dünyada sonsuz saydadır. Bunların içərisində Amerikada ucalan azadlıq abidəsinin öz yeri var. Dünyada məşhur olan Azadlıq abidəsi fransızlar tərəfindən amerikalılara hədiyyə olunub. Bu abidənin layihəsi elzaslı Fredrix Avqust Bertold tərəfindən hazırlanıb. Abidə Fransa ilə Amerika arasında olan dostluq münasibətlərini əbədiləşdirməli idi. Hündürlüyü 152 fut, 225 ton poladdan hazırlanmış abidənin tikilişinə fransızlar 250 min dollar pul sərf ediblər. Abidənin dayaq hissəsini isə amerikalılar

özləri hazırlayıb. Dayağın tikilişində minlərlə amerikalı iştirak edib. Yalnız dayaq üçün onlar 270 min dollar pul sərf ediblər. 1886-cı il, oktyabrın 28-də Amerika prezidenti Klevlend bu məşhur abidəni Fransa hökumətindən qəbul edib. Abidə Nyu-Yorkda, Azadlıq adasında üzü okeana tərəf yerləşdirilib. Bu, sağ əlində məşəl, sol əlində kitab olan əzəmətli bir azadlıq ilahəsidir. Sonralar ABŞ-da abidənin şərəfinə bir sıra tədbirlər keçirilib. Hətta 1972-ci il sentyabrın 26-da prezident Nikson abidənin özül hissəsində mühacirlər muzeyinin təşkil edilməsi haqqında sərəncam verib. Azadlıq abidəsi yalnız Amerikanın deyil, bütün dünya ölkələrinin azadlıq rəmzidir. Milyonlarla insan dünyanın hər tərəfindən bu əzəmətli abidəyə baxmaq üçün gəlir.

Əziz viktorina iştirakçıları! Hər bir insan ölkəsinin tarixini nəinki dərsliklərdən, nağıllardan, əfsanələrdən, eləcə də ölkəsinin zəngin olduğu tarixi abidələrdən və tarixi yerlərdən öyrənir. İndi isə viktorinanın suallarını sizlər üçün təqdim edirik.

1. ☺ Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü nə vaxt qeyd olunur?
   ☺Cavab: YUNESKO-nun qərarı ilə 1983-ildən etibarən hər il aprelin 18 dünyada “Beynəlxalq Abidələr bə Tarixi Yerlər Günü” kimi qeyd olunur.
2. ☺ Düşünürsünüz ki, bu günü təqvimdə qeyd etmək lazımdır?
3. ☺ Cavab: Bəli.
4. ☺ Bilirsinizmi ki, bizim şəhərin hansı abidələri tarixi abidə kimi qiymətləndirilir?
5. ☺Cavab: Qız qalası, Qobustan Tarixi qoruğu, Şirvanşahlar sarayı, Qoşa qala qapısı və s.
6. ☺ Bizim ölkədə siz hansı tarixi yerləri ziyarət etmək istərdiniz?
7. ☺Cavab: Qız qalasını, Şirvanşahlar sarayını...

8. ☺ Dünyanın hansı tarixi yerlərinə ziyarət etmək istərdiniz?
9. ☺Cavab: Tac Mahal, Eyfel qülləsi, Azadlıq heykəli və s...
10. ☺ Hansı dünya möcüzələrini siz tanıyırsınız?
☺Cavab: Misir piramidaları – Misir
Semiramidanın asma bağları – Əl Hilləh, İraq
Artemida məbədi – İzmir, Türkiyə
Rodoslu Koloss – Rodos, Yunanıstan
İsgəndəriyyə mayakı – İsgəndəriyyə, Misir
Halikarnas mavzoleyi – Bodrum, Türkiyə.
11. Hansı tarixi yerlərin dünya möcüzəsi kimi sayılmasını istərdiniz?
Qobustan, Əshabi-kəhf.
12. ☺ Sizcə insanlara abidələr və tarixi yerlər haqqında bilmək lazımdırmı?
13. ☺Cavab: Bəli.

Əziz viktorina iştirakçıları, indi isə sizə ən yaxşı dünya abidələri siyahısını təqdim edirik.

Tac Mahal – Hindistan
Eyfel qülləsi – Paris
Azadlıq heykəli – Nyu York
Pyotrun qədim şəhəri – İordaniya
Qızıl meydan kreml sarayı – Moskva
Kolizey – Roma
Böyük Çin səddi – Çin
Akropol – Afina
Əhhambra sarayı – İspaniya
Stounxeyd – İngiltərə
Anqkoq-Vat kilsəsi – Kambogya
Muai fiqurları – Pasxa adası
İsa Peyğəmbərin heykəli – Rio-de-Janeyqo

İnk tayfalarının arxeoloji kompleksi – Maçu-Pukç – Peru
Çuçen-içe piramidaları – Meksika
Kiomuça kilsəsi – Kioto
Noyşvanştayn qəsri – Almaniya
Timbuktu orta əsrlər şəhəri – Mali
Operanın binası – Avstraliya, Sidney
Aya Sofya məbədi – Türkiyə
Qize piramidaları

İbtidai icma dövrü adlandırılan çox qədim zamanlardan başlayaraq bəşər övladının bu dünyada yaşayışı nəinki izsiz ötməmiş, əksinə, o, özündən sonrakı nəsillərə çox şeylər söyləyəcək maddi və mənəvi mədəniyyət qoyub. Dünya xalqlarının keçmişi, həyat tərzi onun tarixi abidələrində və yerlərində təcəssüm olunur. Nələrsə bu günümüzə bütöv gəlib çatıb, nələrdənsə xarabalıqlar qalıb, nələrsə öz izini yalnız nağıllarda, əfsanələrdə saxlayıb. Bunun da təbii fəlakətlər, müharibələr, "bərpa" adı altında məqsədli dəyişmələr, dağıdılma və nəhayət, zaman kimi səbəbləri var.

İnsanın yaratdığı abidələr, yaşadığı yerlər zahirən dilsiz olsa da, mövcud durumu ilə bizlərə çox şey söyləyir. Zəngin müşahidə qabiliyyəti və mütəxəssisin gözü isə bu abidələrdən çox sirləri oxuyur. Abidələr və tarixi yerlər öz görkəmləri ilə xalqlara hər an kimliyini, nəyə qadir olduğunu xatırladır, vətən sevgisi və ona sadiqlik hisslərini aşılayır. Xalqın mənəvi xəzinəsinin, "mən"inin cəmləşdiyi bu maddiyyat insanlara ulu əcdadlarından danışır, milli özünüdərkin formalaşmasında mühüm rol oynayır. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir.

Təkcə XX əsrdə baş vermiş iki dünya müharibəsi nəticəsində nə qədər dağıntılar olub. Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir.

Erməni qəddarlığı, amansızlığı barədə fikir söyləmək istəmirik. Çünki onların qeyri-adi insani cəhətləri, mənfur xislətləri bəllidir. Ancaq rəsmi məlumata istinadən bəzi faktları xatırladırıq: indi Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus 1200 abidəni ya darmadağın ediblər, ya da "özəlləşdiriblər". Onların yırtıcılığı, dağıdıcılığı o həddə çatmışdı ki, hətta ötən əsrin 70-ci illərində Kəlbəcərin, Laçının, Şuşanın, ümumiyyətlə, Qarabağ ərazilərindəki daş fiqurlara, tarixi yadigarlara öz əqidələrinə, məsləklərinə uyğun işarələr vururdular.

26 ildir ki, özü tarixi abidə kimi qəbul edilən Şuşa düşmən tapdağı altında inildəyir. Sakinləri ata-baba yurd yerlərindən məcburiyyət qarşısında didərgin düşüblər. Özü yandırılıb, dağıdılıb, uçurulub. Qəsbkar ermənilərin alçaqlığı o həddə çatıb ki, dünyada tanınan dahi Üzeyir bəy Hacıbəyovun, Bülbülün, Natəvanın "Bazar başı" deyilən ünvanda ucaldılmış büstlərini də güllələyiblər.

İşğal altındakı ərazilərdə Dirili Qurbaninin, Sarı Aşığın, Aşıq Ələsgərin məzarları da dağıdılıb, təhqirə məruz qalıb. Füzuli rayonundakı Azıx mağarası uçurdulub. Zəngilan ərazisindəki 106 hektarlıq "Rəzdərə çınarlığı" yerlə yeksan olunub.

Qədim azərbaycan torpağı memarlıq abidələrilə zəngindir. Bu xəzinəyə saysız-hesabsız saray, türbə, məscid, xanəgah, karvansara, hamam, körpü, ovdan, qala, bürc, yaşayış binaları daxildir. El arasında deyirlər ki, xalqın keçmişini, tarixini onun abidələrindən soruş. Hər il arxeoloqlarımız Azərbaycan memarlarının yaratdığı yeni-yeni abidələri aşkar edirlər.

Bu abidələrin xeyli hissəsi Azərbaycanın qədim torpağı və gözəl guşəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşir. Dünya şöhrəti qazanmış Yusif ibn Küseyir və Möminə xatun türbələri, Culfa yaxınlığında "Gülüstan" və Qarbağlar kəndindəki qoşa türbələr, Oğlanqala və Əlincəqala kimi

möhtəşəm müdafiə istehkamları bu diyarın hüsnünü bəzəyir. Bu abidələr klassik kompozisiyası, rəngarəng kaşıları, həndəsi xətlərlə qurulmuş zəngin naxışları, böyük ustalıqla yaradılmış tağ-taçaları ilə insanı valeh edir. Möminə xatun türbəsinin girişi üstündəki ibrətamiz yazı ilk baxışda diqqəti cəlb edir. “Biz gedəcəyik, dünya duracaq. Biz öləcəyik, bu yadigar qalacaq”. Kimdir bu yadigarın müəllifi? Əcəmi Naxçıvan memarlıq məktəbinin banisi, həmin məktəbin yüksək nailiyyətlərinin yaradıcısıdır. O, təkcə orta əsr Azərbaycanının deyil, habelə Şərqin dahi memarlarından olmuşdur.

Naxçıvan şəhərinin mərkəzində Yusif Kuseyir oğlu türbəsi ucalır. Yusif Kuseyir oğlu türbəsi səkkizbucaqlı gövdədən və piramidaya bənzər günbəzdən ibarətdir. Türbənin səthini örtən və ona yaraşıq verən həndəsi ornametlərin yuxarı tərəfində onun 1162-ci ildə Naxçıvan memarı Əcəmi Əbubəkr oğlu tərəfindən tikildiyi haqda məlumat həkk olunub.

Əcəmi Əbubəkr oğlu 1126-cı ildə Naxçıvanda anadan olmuş, öz məşhur əsərlərini burada yaratmışdır. Əcəmi Azərbaycanın memarlıq tarixində dərin iz qoymuş, xalqımızın orta əsr abidələrinin müəllifləri sırasında fəxri yer tutmuşdur. Dövrünün baş mühəndisi öz şah əsərləri ilə Yaxın Şərqin memarlıq aləmində də xüsusi yer tutmuşdur. Qeyd edək ki, X əsrdə Naxçıvan memarlıq məktəbin yaranması və XII əsrdə Naxçıvanın Eldəgizlərin paytaxtına çevrilməsi şəhərin inkişafında, quruluşunda və mədəniyyətində böyük rol oynamışdır. Məhz keçmişin nadir orijinal abidələri bu dövrdə yaranıb. Sonrakı əsrlərdə isə döyüşlər nəticəsində xalqımızın tarixini özündə yaşadan yüzlərlə tikili mühafizə olunmayıb, uçulub-dağılıb, xarabalığa çevrilib.

Yusif Kuseyir oğlu türbəsinin divarlarının qalınlığı 80 santimetrdir. Abidə bərpa edilmiş, dağılan hissələri düzəldilmişdir.

1186-cı ildə inşa edilmiş Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunın xatirəsini əbədiləşdirən bu türbə yerli əhali arasında “Atabəy günbəzi” adı ilə də məşhurdur. Abidə yeraltı (sərdaba) və yerüstü hissələrdən ibarətdir. Möminə xatun türbəsi memarın şah əsəri, memarlıq tarixinin yüksək zirvələrindən biri, tarixçilərin daim tədqiqat obyektidir.

Əcəmi Möminə xatun türbəsində memarlıqda ilk dəfə olaraq bir sıra yeniliklər işlədib. Tağlar vasitəsilə günbəzin saxlanmasına, türbənin içərisini bəzəyən kitabəli medalyonlara, kərpiclərin firuzəyi kaşı ilə örtülməsinə sonrakı əsrlərdə müxtəlif ölkələrin memarlıq abidələrinə də rast gəlmək mümkündür.

Əlbəttə, orta əsrin şəhərlərinin abidələrini düşməndən qorumağa Naxçıvan torpağında istehkamlar və qalalar da tikilibmiş. Orta əsr əzəmətli tikintilərindən “Əlincəqala” ornament bəzəkləri ilə tanış olduğumuz qalalardan fərqlənir. Qalanın divarları dağın ətəyindən qalxıb, dağın təpəsini əhatə edir. Əlincəqalanın həm möhkəmliyi, həm də su ilə təmin olunması bizim diqqətimizi cəlb edir, çünki bilirik ki, qalanın suyu olmasa, müdafiə olunanların vəziyyəti çətin olar.

Qalanın su quyusu da, bulağı da yoxdur. Arx ilə kənardan bulaq suyu gətirmək olmaz, düşmən yolunu kəsə bilər. Memarlar çıxış yolu tapıblarmış. Qalanın ərazisində qayalarda xəndəklər qazıb, onları böyük hovuzdara birləşdiriblər. Yağış suyu xəndəklərdən hovuzlara dolub, qalanı müdafiə edənləri su ilə təmin olmağa imkan verirdi.

Naxçıvan zümzüməli çaylar, əfsanəvi meşələr, əlçatmaz qayalar, həm də abidələr ölkəsidir. Müasir Naxçıvanın yaraşığı olan qədim abidələr keçmişin yadigarıdır. Elə onların bir çox nümunələri xalqımızın memarlıq sənətinin çox yüksək səviyyədə olduğunu sübut edir.

Tarixi abidələr və tarixi yerlər günündən danışarkən heç şübhəsiz Əshabi-kəhf ziyarətgahının adını çəkməmək mümkün deyil. Nənə babalarımızdan "Ya Əshabi-Kəhf, Ya Mirismayıl ağanın günbəzi..." adlı dualar eşidərdik. Demək olar ki, bütün çətin işlərdə Allaha üz tutulan dualarda bu sözlər işlədilərdi.

Yüz illərdir ki, insanlar bu ziyarətgaha gələr, niyyət edər, qurbanlar kəsərlər. Müqəddəs kitabımız Qurani-Kərimdə bu ziyarətgahın adı çəkilmiş, hətta Quranda ayrıca "Kəhf" surəsi də nazil edilmişdir. Bir çox deyimlərdə deyilir ki, bu yerlər Allahın varlığını, hökmünü, qüdrətini, böyüklüyünü, ucalığını təsdiq edən dağ möhürüdür. Çox-çox keçmiş zamanlarda Ağrı dağı ilə İlanlı dağ arasında, Arazın sahilində, uca dağlar başındakı böyük bir şəhərdə Dağ Yunis adlı bir hökmdar yaşayırmış. Qüvvətli və tədbirli olmaqla bərabər həm də çox zalım və qaniçən imiş. O hər gün qapılarından ikiyə parçalanmış insan cəsədi asdırar, xalqı itaətdə saxlamaq üçün hər hansı zülmdən çəkinməzdi. O, "Mən bir Tanrıyam!" deyərək insanlara zülm etməkdən, əzab verməkdən zövq alardı.

Hökmdarın vəziri Təmleyxa çox ağıllı və idarklı bir adam idi. O, Dağ Yunisin zülmlərini xeyli götür-qoy edərək şübhə içində qaldı. O düşündü ki, Dağ Yunis də elə bizim kimi adamdır. Hər gün nə qədər günahsız insan öldürür. Əgər doğrudan da Tanrıdırsa, görəsən illərlə beynində ona əziyyət verən bir məxluqu niyə öldürə bilməyib. Hələ gənc yaşlarında Dağ Yunisin beyninə bir milçək girib orada özünə yer eləmişdi. Hər dəfə milçək hökmdarın başında tərpəndikcə dəhşətli ağrılar onu əldən salırdı. Beləliklə, vəzirin şübhələri günbəgün artır. Bir dəfə o, öz şübhələrini yaxın dostu Bəhruzla bölüşəndə məlum olur ki, o sonra sarayın daha dörd nəfər əyanı həmin şübhələrlə onlara qoşulur. Nəhayət, gecələrin birində bu altı nəfər əlbir olub "Dağ Yunis Tanrı deyil, biz həqiqi Tanrımızı, bütün aləmi yoxdan yaradan əsl Allahımızı tanımalıyıq", deyə sarayı tərk

edirlər. Xeyli gedəndən sonra bir çobanla rastlaşırlar. Dərdlərini onunla bölüşəndə çoban deyir: – Bu şübhə çoxdandır mənim də ürəyimə düşüb.

O da yolçulara qoşulur. Bir azdan qarşılarına çıxan iti nə qədər qovurlarsa, it uzaqlaşmır. Çoban köpəyin hürüb səs salacağından, beləliklə də, yerlərinin məlum olacağından qorxaraq onun ayağını qırır. İt dilə gəlib deyir:

– Niyə məni şikəst elədin, ay mənim sahibim? Məni sizi Yaradan yaratdı, mən də onu axtarmağa gedirəm. Yolçular heyrətə gəlirlər:

– Bizi heçdən yaradan və heyvanı insan kimi danışdıran kimdirsə, odur bizim Tanrımız! Onlar yenidən yola düzəlirlər. Bir qədər sonra yaralı it elə yoldaca ölür. Yolçular iti basdırıb acza dincəlirlər. Səhər saray adamları yolçuların izi ilə həmin yerə gəlib çıxsalar da, parçalanmış qayaların qarşısında böyük bir hörümçək yuvası görüb burada heç kəsin olmadığını zənn edirlər.

Yuxudan ayılmış yolçular çox ac olduqlarından dostlarının birini yaxınlıqdakı Naxçıvan şəhərinə çörək almağa göndərirlər. Dükanda kişinin verdiyi pula baxan çörəkçi əsəbləşir:

– Köhnə pul verib məni aldatmaqmı istəyirən?

– Nə danışırsan, a kişi, bu pulu dünən xəzinədən maaş kimi almışam.

– Bu üç yüz il əvvəlin puludur. Üzərində Dağ Yunisin şəkli də var. Babam deyərdi ki, üç əsr əvvəl yaşamış Dağ Yunis çox qəddar və zalım imiş. Allah onun torpağına od tökmüş, sarayını yandırıb dağıtmışdır.

Yolçu bu söhbəti eşitcək tez dostlarına xəbərə gedir. Onlar başa düşürlər ki, üç yüz il yatıblar və mağara onları böyük sədaqətlə düşmənlərdən gizlədə bilib. Yolçular ələ keçməmək üçün Allaha üz tutub yalvarırlar ki, bizi qeyb elə! Dağ ortadan ayrılır və yeddi yoldaş yoxa çıxır. Onları izləyən çörəkçinin

adamları bu hadisəni görüb heyrətə gəlirlər. O zamandan bu yer Əshabi-Kəhf adlanır və insanlar onu ziyarət etməyə başlayırlar.

Bu, Əshabi-Kəhflə bağlı xalqın illərlə qəlbində, beynində yaşatdığı rəvayətdir. Bu rəvayət tarixin hansı həqiqəti və nağılı ilə həmahəngdir bilmirik. Bircə onu bilirik, biz bu rəvayətləri, nağılları, həqiqətləri yaşadıb, gələcək nəsillərə çatdırmalı, inanclarımıza inanmalı, bu müqəddəs ocağın müqəddəsliyinə inanmalıyıq.

Azərbaycan rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

## Ədəbiyyat siyahısı


**Azərbaycan İslam Mədəniyyəti Abidələri** : abidələr, alimlər, mütəfəkkirlər, məktəblər. - Bakı : Aspoliqraf, 2008. - 152 s.

**Azərbaycan tarixi atlası**. - Bakı : Bakı Kartoqrafiya Fabriki, 2007. - 55 s. : xəritə, rəngli foto.

**Azərbaycanın tarixi abidələri və toponimləri**. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2016. - 648 s.

**Bayramov R.** XI - XVIII əsrlər Azərbaycan memarlıq abidələrinin tipoloji təsnifatı. - Bakı : Şərq-Qərb, 2013. - 136 s.

**Əbdülrəhimov R.** Erkən kapitalizm dövrünün memarlığı (XIX - XX əsrin əvvəli). **IV cild** = Architecture in the early period of capitalism (The XIX - begining of the XX c.c.). - Bakı : Şərq-Qərb, 2013. - 344 p. (Azərbaycan memarlıq tarixi = History of Azerbaijan Architecture). - Azərbaycan və ingilis dillərində.

**Ələkbərli Ə.** Qərbi Azərbaycan abidələri = Monuments of the western Azerbaijan. - Bakı : Ağrıdağ, 2006. - 328 s. : il., rəngli foto. - Azərbaycan və ingilis dillərində.

**Əmənzadə R.** Azərbaycan memarlığı XV - XIX əsrin əvvəllərində. III cild = Архитектура Азербайджана XV - начала XIX веков. - Bakı : Şərq-Qərb, 2013. - 232 s. - (Azərbaycan memarlıq tarixi = История Архитектуры Азербайджана). - Azərbaycan və rus dillərində. - (supercildli).

**Hacıyev Q.** Qarabağın maddi və mənəvi mədəniyyəti. - Bakı : Təhsil, 2010. - 152 s. : foto, rəngli foto, xəritə.- Azərbaycan, ingilis və fransız dillərində.

**Hüseynov A.** Tarixdə baş vermiş döyüşlər. Ölkələr arasında bağlanmış müqavilələr. Vergilər və torpaq mülkiyyəti formaları. Tarixi abidələr. - Bakı : Araz, 2007. - 104 s.

**İbrahimov K.** Bakı. İçərişəhər. - Bakı : Çinar - Çap, 2006. - 256 s. : foto.

**Qarabağ abidələri** = Karabakh monuments = Памятники Карабаха. - Bakı : Günəş, 2009. - 183 s. : foto.rəng., rəng.şək.

**Qiyasi C.** Erməni mənəvi terroru : Adlar dəyişsə də, tarix qalır = Armenian acts of cultural terrorism : History remembers, while names changed. - Bakı : Kitab klubu, 2007. - 80 s. : il., foto. - Azərbaycan və ingilis dillərində.

**Məmmədov N.** İşğal altındakı tarixi - dini abidələrimiz. - Bakı : Nurlar NPM, 2015. - 96 s.

**Müharibə və tarixi - mədəniyyət abidələrimiz** : İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar. - Bakı : [s. n.], 2006. - 56 s.

**Pirsultanlı S.** Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi. - Bakı : Nurlan, 2007. - 308 s.

**Rüstəmov C.** Qobustan : Kiçikdaş abidələri. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008. - 316 s. : foto.

**Rüstəmov C.** Qobustan-Azərbaycanın qədim mədəniyyət ocağı = Gobustan -The Ancient Centre of Azerbaijan Culture. - Bakı : Nurlar, 2006. - 96 s.

**Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 25
Çapa imzalanmışdır: 27.03.2018
Tirajı:100
Pulsuz